ÜMUMDÜNYA
ŞƏHƏRSALMA
FORUMU
ON ÜÇÜNCÜ SESSİYA
BAKI, AZƏRBAYCAN | 17-22 MAY 2026-CI İL

UN-HABITAT

# Ümumdünya Şəhərsalma Forumunun

On Üçüncü sessiyası üzrə

# MEDİA BƏLƏDÇİSİ





2026-cı il mayın 17-dən 22-dək
Azərbaycan Respublikasının
paytaxtı Bakı şəhəri
**“Hər kəs üçün yaşayış yerləri:
təhlükəsiz və dayanıqlı şəhərlər və
yaşayış məskənləri”** mövzusuna həsr
olunmuş Ümumdünya Şəhərsalma
Forumunun 13-cü sessiyasına
(WUF13) ev sahibliyi edəcək.

Tədbirdə qeyri-rəsmi yaşayış məntəqələri və gecəqondularının transformasiyası, eləcə də qlobal mənzil böhranının aradan qaldırılması yolları müzakirə olunacaq.

2001-ci ildə təsis edilmiş Ümumdünya Şəhərsalma Forumu BMT-nin şəhərlər və dayanıqlı şəhərsalma üzrə yüksək səviyyəli qlobal platformasıdır.





# Tədbir haqqında ətraflı məlumat

**Tarix:** 17-22 may 2026-cı il
**Yer:** Bakı Olimpiya Stadionu
**Təşkilatçılar:** BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Azərbaycan Respublikası Hökuməti
**Rəsmi sayt:** wuf.unhabitat.org

BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Azərbaycan Respublikası Hökuməti tərəfindən birgə təşkil olunan bu tədbir Qafqaz regionunda ilk dəfə keçirilir.

WUF13 nazirlər, regional rəhbərlər, şəhər merləri, şəhərsalma mütəxəssisləri, siyasəti müəyyənləşdirən şəxslər, özəl sektor nümayəndələri, vətəndaş cəmiyyəti, akademik dairələr və BMT qurumlarını bir araya gətirməklə yanaşı, dayanıqlı şəhərsalma inkişafı sahəsində bilik mübadiləsi və əməkdaşlığı təşviq edəcək.



### Anaklaudia Rossbax

BMT-nin Baş katibinin müavini və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru

Anaklaudia Rossbax iqtisadçıdır və mənzil təminatı, qeyri-rəsmi yaşayış məntəqələri, eləcə də şəhərsalma siyasəti sahəsində 20 ildən artıq təcrübəyə malikdir. O, 2024-cü ilin iyununda BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru vəzifəsinə təyin edilmişdir.

Bu təyinatdan əvvəl Dünya Bankında çalışdığı ərəfədə, o, Braziliyada mənzil siyasəti və gecəqonduların modernləşdirilməsi üzrə proqramların hazırlanması və icrasına rəhbərlik etmiş, Linkoln adına Torpaq Siyasəti İnstitutunda Latın Amerikası və Karib hövzəsi üzrə direktor vəzifəsində çalışmışdır.



### Anar Quliyev

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru

Anar Quliyev peşəkar əmək fəaliyyətinə 1999-cu ildə dövlət əmlakının idarə olunması sektorunda başlayıb və daha sonra iqtisadi inkişaf, mədəni irsin idarə olunması, eləcə də güzəştli mənzil sistemi sahələrində rəhbər vəzifələrdə çalışıb.

2018-ci ildən etibarən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsində aparat rəhbəri kimi fəaliyyətini davam etdirən Anar Quliyev Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2019-cu ilin iyununda Komitə sədrinin birinci müavini, 2020-ci ilin yanvarında isə sədr vəzifəsinə təyin olunub.

O, Prezident İlham Əliyevin Sərəncamına əsasən "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib. 2024-cü ildən etibarən Anar Quliyev Azərbaycan Kamandan Oxatma Federasiyasının prezidentidir.

2025-ci ilin aprelində Anar Quliyev Prezident İlham Əliyev tərəfindən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) milli koordinatoru təyin edilib.



# WUF13 hansı imkanları təqdim edir?

**WUF13 şəhərsalma prosesinin bütün aspektləri ilə maraqlanan hər kəs üçün şəhərlərin salınması, planlaşdırılması və idarə edilməsi kimi məsələlərin müzakirəsi, eləcə də media nümayəndələrinin bu mövzuları işıqlandırması üçün unikal imkandır.**

Tədbirin məqsədi Yeni Şəhərsalma Gündəliyi və Dayanıqlı İnkişaf Məqsədlərinin, xüsusən də dayanıqlı şəhərlər və digər yaşayış məskənləri üzrə DİM11-in həyata keçirilməsini təşviq etməkdir.

## Tədbirin əsas istiqamətləri:

- Tədbirdə iştirak edən aparıcı şəxslərlə mətbuat konfransları (ətraflı məlumat daha sonra təqdim olunacaq).
- Forum çərçivəsində açılış və bağlanış mərasimləri, assambleyalar, dialoqlar, xüsusi sessiyalar və dəyirmi masalar da daxil olmaqla, şəhər inkişafına həsr olunmuş müxtəlif mövzuları əhatə edən, şəbəkələşmə və fikir mübadiləsi üçün şərait yaradan 500-dən çox tədbir təşkil olunacaq.
- "Urban Expo" sərgisində şəhərsalma çağırışları üzrə ən son innovasiyalar və həll variantlarının nümayişi.
- BMT-nin altı rəsmi dilində bütün dünya ictimaiyyəti üçün canlı yayımlar, eləcə də beynəlxalq işarə dili (surdotərcümə) xidmətləri.

# WUF13 media tərəfdaşlığı

Müxtəlif dünya ölkələrindən media nümayəndələrini qəbul etməklə yanaşı, WUF13 şəhərlər və şəhərsalma ilə bağlı qlobal ictimai müzakirənin formalaşdırılmasında aparıcı beynəlxalq, regional və ixtisaslaşmış media qurumları ilə strateji tərəfdaş qismində əməkdaşlıq edir.

Daha ətraflı məlumat media bələdçisinin sonunda verilən əlavədə qeyd olunmuşdur.

# Gündəliyin xülasəsi

## Dialoqlar

WUF13 dialoqları siyasətin formalaşdırılması və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əsas tədbirlərdir.

### Dialoq 1:
**Qlobal mənzil böhranı: Çıxış yolu nədir?**

Dünyanın bir çox şəhərlərində əlçatan mənzil təminatında yaranan problemlər hökumətlər, özəl sektor və qeyri-kommersiya təşkilatları tərəfindən necə həll olunur?

### Dialoq 2:
**Qeyri-rəsmi yaşayış məntəqələri və gecəqondularln transformasiyası**

Bu dialoq qeyri-rəsmi yaşayış məskənlərinin inzibati sanksiya tədbirlərinə müraciət etmədən necə transformasiya ediləcəyini, eləcə də sakinlər üçün daha yüksək keyfiyyətli xidmət və infrastrukturun hansı yollarla təmin olunacağını müzakirəyə çıxarır.

### Dialoq 3:
**Böhran sonrası şəhərlərin bərpası və yenidən qurulmasında mənzil təminatı**

Layiqli mənzil təminatını prioritetləşdirərək böhrandan sonrakı yenidənqurma prosesinin müəyyənləşdirilməsi, həmçinin şəhərlərin planlaşdırma və mənzil siyasətlərinə sakinlərin məcburi köçürülməsi nəticəsində yaranan problemlərin inteqrasiyası üçün nə etmək lazımdır?

### Dialoq 4:
**İqlim və mənzil siyasəti arasındakı əlaqə**

Bu dialoq iqlimədavamlı mənzil siyasətinin məcburi köçürülmə və gentrifikasiyaya səbəb olmaması üçün nə etmək lazım olduğunu araşdırır, həmçinin yeni mənzil təşəbbüslərinin yalnız dekarbonizasiya prosesinə deyil, həm də insan amilinə yönəldilməsinin vacibliyini nəzərdən keçirir.

### Dialoq 5:
**Mənzil təminatının sosial və iqtisadi təsiri**

Dialoq mənzilin həm iqtisadi artım və rifahın aparıcı qüvvəsi kimi oynadığı rolunu, həm də müxtəlif bölgələr, əhali qrupları və ölkələr üzrə sosial hüquq və təminatların qorunması zərurətini uzlaşdırmağın yollarını araşdıracaq, həmçinin, bu məqsədin həyata keçirilməsində yerli hökumətlərin verə biləcəyi töhfələrə də diqqət yetirəcək.

### Dialoq 6:
**Mənzil təminatının maliyyələşdirilməsi üzrə yeni yanaşmalar**

Ənənəvi mənzil maliyyələşdirilməsinə alternativlər yaransa da, bu alternativlər hələ də lazımi səviyyədə tanınmır. Mənzil təminatında inklüziv, dayanıqlı və müxtəlif ehtiyacları operativ surətdə qarşılayan mənzil maliyyələşdirilməsi üzrə "yeni razılaşma" necə bir yanaşmanı ehtiva edir?



# Xüsusi sessiyalar

Aşağıdakı mövzular üzrə səkkiz xüsusi sessiya:



### Mənzil təminatı qlobal koalisiyaların gündəliyində

*#housingcoalitions #housingaction*

Bu sessiya DİM11.1-ə doğru irəliləyişi sürətləndirmək və əməkdaşlığı gücləndirmək üçün praktik addımları müəyyən edəcək.

### Tullantıların idarə olunmasından dairəvi iqtisadiyyata keçid

*#circulareconomy*

"Tullantıları idarə edən şəhərlər" ("Waste Wise Cities") təşəbbüsü, Afrika Təmiz Şəhərlər Platforması ("African Clean Cities Platform" [EA5.1]) və qlobal dairəvi iqtisadiyyat tərəfdaşları vasitəsilə əməkdaşlıq üçün yeni imkanlar üzrə konkret istiqamətləndirici tövsiyələr.

### İnkişaf etməkdə olan kiçik ada dövlətlərində (SIDS) inklüziv şəhər davamlılığı, "mavi" iqtisadiyyat və dayanıqlı turizm

*#islandresilience #islandinnovations*

Mənzil sistemlərini gücləndirən, sahilyanı yaşayış məskənlərini qoruyan və "mavi" iqtisadiyyatı dəstəkləyən siyasət və planlaşdırma sahəsində innovativ yanaşmaların nümayişi.

### Şəhərlər oyun meydançaları kimi

*#sportinthecity*

Bu sessiya idmanın inklüzivlik, sağlamlıq və yaşayış məskənlərinin davamlılığını gücləndirən əsas şəhər xidmətlərindən biri kimi oynadığı rolu araşdıracaq.

### Sağlam evlərin həyat ritmi

*#housingforhealth #housingforwellbeing*

Bu sessiya rifahın formalaşmasına mənzil və xidmətlərin necə təsir göstərdiyini və bunun inklüziv, iqlimədavamlı şəhərlərin qurulması üçün nə dərəcədə mühüm əhəmiyyət daşıdığını ön plana çıxaracaq.

### Afrika üzrə əlverişli mənzil paktı– investorlar üçün "Təklif və tərəfdaşlıq platforması" (Deal Room)" formatında xüsusi sessiya

*#investordealroom #affordablehousing*

Bu sessiyada seçilmiş mütəxəssislər maliyyə baxımından perspektiv layihələrini təqdim etməklə yanaşı, birbaşa həm maliyyə qurumlarından, həm də auditoriyadan rəy alacaqlar.

### Mədəni irs və inklüziv şəhər bərpasına yeni baxış

*#inclusiveheritage #inclusiveregeneration*

Bu sessiya əhatəli hekayə təqdimatları, canlı çıxışlar və yüksək səviyyəli dialoqlarla müşayiət olunmaqla yanaşı, həm də müxtəlif regionlardan şəhər rəhbərlərinin, eləcə də mədəniyyət mütəxəssisləri və inkişaf tərəfdaşlarının töhfələrini əhatə edəcək.

### Ön cəbhə hekayələri: şəhər iqlim irsinin gücləndirilməsi

*#resilientcities #financingresilience*

Bu sessiya xüsusilə Amazon bölgəsində və iqlim baxımından həssas olan digər şəhərlərdə ön xətt təcrübəsinə əsaslanaraq, hekayə təqdimatını praktik yanaşmalarla birləşdirir və insanmərkəzli, iqlimədavamlı şəhər gələcəyi üçün müştərək prioritetlərin formalaşdırılmasına xidmət edir.

# WUF13 çərçivəsində innovasiyalar



WUF13 dünyanın müxtəlif şəhər və ölkələrində sınaqdan keçirilmiş həll variantlarının, eləcə də innovasiyalar və qabaqcıl təcrübələrin nümayişinə həsr olunmuş yeni məkanı – **Təcrübə mərkəzini** təqdim edir.



Digər yenilik – **WUF Akademiyası** isə universitetləri, eləcə də kadr hazırlığı sahəsində ixtisaslaşan təlim institutlarını və tərəfdaş təşkilatları şəhərsalma problemlərinin həlli üçün bacarıq və potensialın artırılması üzrə təhsil sessiyaları təşkil etməyə çağırır.



# Media mərkəzi

WUF13 tədbir məkanında şəhərlər və dayanıqlı şəhərsalma üzrə dünya səviyyəli aparıcı qlobal tədbirin real vaxt rejimində və yüksək keyfiyyətlə işıqlandırılmasını təmin etmək məqsədilə Media Mərkəzi yaradılıb. Bu mərkəz akkreditə olunmuş jurnalistlərə, eləcə də yayım şirkətlərinə tədbir boyu reportajlar hazırlamaq, canlı məzmun istehsal etmək, müsahibələr götürmək və maraq kəsb edən xəbər mənbələri ilə birbaşa əlaqə yaratmaq üçün əsas platforma funksiyasını yerinə yetirir.

Mövcud infrastruktur və xidmətlərdən bəziləri:

- Canlı yayımlar, televiziya müxbirlərinin kamera qarşısında çıxışı və məsafədən reportajların hazırlanması üçün **xüsusi media zonaları**
- **Müsahibə və şərhlər üçün məkanlar,** o cümlədən (zərurət olduqda) canlı yayım zonaları
- Rəsmi **mətbuat konfransı üçün otaq**
- Elektrik yuvaları ilə təchiz olunmuş **reportaj masaları**
- Kabel və simsiz **internet bağlantısı**
- Yüngül qəlyanaltı ilə təmin olunmuş **istirahət zonası**





**Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı həyata keçirilən işlərin sürətləndirilməsi və qlobal mənzil böhranının aradan qaldırılması baxımından mühüm imkan olacaq.**

Getdikcə daha çox urbanizasiyaya məruz qalan dünyada 11-ci Dayanıqlı İnkişaf Məqsədi (DİM11) çərçivəsində həm təhlükəsiz, həm də davamlı şəhərlər və yaşayış məskənləri yaratmaq vədinin reallaşdırılması hər zaman olduğundan daha aktualdır.

WUF13 mənzil təminatını inkişaf gündəliyinin mərkəzində yerləşdirməklə, cari öhdəlikləri fəaliyyətə çevirməyin yollarını araşdıracaq.

**2026-cı il mayın 17-dən 22-dək Bakıda bizə qoşulun!**

Bizimlə əlaqə saxlayın

@WorldUrbanForum | @WUF_UNHabitat | @World Urban Forum | @WUF_UNHabitat | @unhabitatglobal

**Əlaqə**

BMT Məskunlaşma Proqramının
(UN-Habitat) Baş Qərargahı
PO Box 30030-00100, Nairobi, Kenia
(Nayrobi, Keniya)
E-poçt: unhabitat-info@un.org

wuf.unhabitat.org | unhabitat.org

**WUF13-ün rəsmi sosial media hesabları**

WUF13 Azerbaijan | @WUF13Azerbaijan | WUF13 Azerbaijan
@wuf13azerbaijan | @wuf13azerbaijan | WUF13 Azerbaijan

WORLD URBAN FORUM
THIRTEENTH SESSION

UN-HABITAT